**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI**

# YENİ FƏALİYYƏTƏ BAŞLAYAN AUDİTOR TƏŞKİLATLARINA VƏ SƏRBƏST AUDİTORLARA ƏMƏLİ KÖMƏKLİYİN GÖSTƏRİLMƏSİNƏ DAİR PROQRAM


***Məsul şəxs:***
*Auditin təşkili, hesabatlılıq və informasiya idarəsinin rəisi* — *V.Cavadov*

***İcraçılar:***
*Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsinin müdiri* — *Z.Almazov*

*Auditin təşkili və təhlili şöbəsinin müdiri* — *N.İsmayılova*


**BAKI - 2022**

**Azərbaycan Respublikasının Auditorlar Palatası**
**Şurasının 2022-ci il 24 noyabr tarixli 350/2**
**nömrəli qərarı ilə təsdiq edilmişdir**

# Yeni fəaliyyətə başlayan auditor təşkilatlarına və sərbəst auditorlara əməli köməkliyin göstərilməsinə dair proqram

## I. Giriş

Bu proqramın hazırlanmasında əsas ölkədə korrupsiyaya qarşı mübarizə, kölgə iqtisadiyyatının azaldılması, yeni innovativ metodlardan istifadə və şəffaflığın artırılması sahəsində Auditorlar Palatasının üzvlərinə (auditor təşkilatları və sərbəst auditorlara) ölkə qanunvericiliyinin, beynəlxalq audit standartlarının, sahəvi audit proqramlarının, informasiya-kommunikasiya texnologiyalarının, beynəlxalq audit təcrübəsinin, Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının təsdiq etdiyi təlimatların, qaydaların, metodik göstərişlərin və s. tətbiqinə dair əməli köməklik göstərilməsindən ibarətdir.

Yeni fəaliyyətə başlayan auditor təşkilatları və sərbəst auditorlara əməli köməkliyin göstərilməsi barədə Auditorlar Palatasının Beynəlxalq Mühasiblər Federasiyasının (İFAC) qarşısındakı 1 saylı Üzvlük Tələblərinə və İFAC-a təqdim edilmiş Tədbirlər Planının 16-cı maddəsinə müvafiq olaraq tərtib edilmiş və Palatanın müvafiq struktur bölməsi tərəfindən bu proqramda nəzərdə tutulmuş məsələlərin əyani və ya onlayn surətdə onlara çatdırılmasını təmin edir.

Bu proqram auditor təşkilatları və sərbəst auditorlara auditor fəaliyyəti göstərmək üçün icazə (xüsusi razılıq) verildiyi gündən bir həftə müddətində aşağıdakı sahələr üzrə əməli köməklik göstərilməsini və öz peşə fəaliyyətlərində tətbiq edilməsini nəzərdə tutur:

## II. Metodik təminat

**Yeni fəaliyyətə başlayan auditor təşkilatlarına və sərbəst auditorlara aşağıdakı materiallar barədə məlumat verilməli və onların əlçatanlığı təmin edilməlidir:**

**1.** Beynəlxalq audit standartlarının (BAS) tətbiqi barədə;

**2.** Maliyyə hesabatlarının beynəlxalq standartlarının (MHBS) tətbiqi üzrə qanunvericiliyin tətbiq edilməsi barədə;

**3.** Sahəvi audit proqramlarının tətbiqi barədə;

**4.** Audit üzrə beynəlxalq və qabaqcıl yerli təcrübənin tətbiqi barədə;

**5.** Peşə etikası norma və standartlarının tətbiqi barədə;

**6.** Sahibkarlıq fəaliyyətinə dair normativ hüquqi sənədlərin tətbiqi barədə;

**7.** Beynəlxalq peşəkar qurumların normativ sənədlərinin təminatı barədə;

**8.** Auditorlar Palatası Şurasının 2015-ci il 30 sentyabr tarixli 266/1 saylı qərarı ilə təsdiq edilmiş "Audit komitəsi haqqında nümunəvi Əsasnamənin hazırlanması" barədə (ƏSASNAMƏ);

**9.** Auditorlar Palatası Şurasının 2015-ci il 30 sentyabr tarixli 266/2 saylı qərarı ilə təsdiq edilmiş "Əlaqəli xidmətlərin göstərilməsini tənzimləyən normativ metodik bazanın yaradılması" barədə (METODİK GÖSTƏRİŞ);

**10.** Auditorlar Palatası Şurasının 2015-ci il 20 oktyabr tarixli 267/7 saylı qərarı ilə təsdiq edilmiş "Auditin aparılması və sənədləşdirilməsinə dair Təlimat" barədə (TƏLİMAT);

**11.** Auditorlar Palatası Şurasının 2016-cı il 30 sentyabr tarixli 279/2 saylı qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında auditor xidmətinin keyfiyyətinə kənar nəzarət

üzrə Qaydalar" barədə (Keyfiyyətə kənar nəzarət son), (CƏDVƏL 2), (KONFİDENSİAL), (BKNS), (BƏYANNAMƏ);

**12.** Auditorlar Palatası Şurasının 2016-cı il 21 noyabr tarixli 281/3 saylı qərarı ilə təsdiq edilmiş “Könüllü və əlaqəli auditor xidmətlərinin genişləndirilməsi üzrə təbirlər sisteminin tətbiqi” barədə (METODİK GÖSTƏRİŞ);

**13.** Auditorlar Palatası Şurasının 2016-cı il 21 noyabr tarixli 281/4 saylı qərarı ilə təsdiq edilmiş “Firmadaxili audit standartlarının hazırlanması” barədə (METODİK GÖSTƏRİŞ) 240, 250, 260, 500;

**14. Auditorlar Palatası Şurasının 2016-cı il 27 dekabr tarixli 284/5 saylı qərarı ilə təsdiq edilmiş “Beynəlxalq Mühasiblər Federasiyasının (IFAC) Beynəlxalq Audit və Təsdiqləmə Standartları Şurasının (IAASB) təsdiq etdiyi Yenilənmiş Beynəlxalq Audit Standartlarının tətbiqi” barədə (BAS 700), (BAS 701), (BAS 705), (BAS 706), (BAS 721), (BAS 800), (BAS 805);**

**15. “Beynəlxalq Mühasiblər Federasiyasının (IFAC) Beynəlxalq Audit və Təsdiqləmə Standartları Şurasının (IAASB) təsdiq etdiyi Yenilənmiş Beynəlxalq Audit Standartlarının tətbiqi” barədə (BAS 220), (BAS 250), (BAS 540), Auditin keyfiyyət konsepsiyası, 1 saylı İSQM, 2 saylı İSQM, 4400 saylı BAS;**

**16.** Auditorlar Palatası Şurasının 2017-ci il 30 iyun tarixli 288/3 saylı qərarı ilə təsdiq edilmiş "Kənd təsərrüfatı kooperativlərində auditin aparılmasına dair Təlimat" barədə (TƏLİMAT);

**17.** Auditorlar Palatası Şurasının 2017-ci il 25 avqust tarixli 289/1 saylı qərarı ilə təsdiq edilmiş “Səlahiyyətli dövlət orqanlarının sifarişi ilə aparılan yoxlamalara dair Qayda” barədə (QAYDA);

**18.** Auditorlar Palatası Şurasının 2017-ci il 20 dekabr tarixli 295/2 saylı qərarı ilə təsdiq edilmiş “Auditorlar Palatasının üzvləri arasında dempinq və haqsız rəqabətin yolverilməzliyi barədə bağlanacaq partnyorluq sazişi” barədə (PARTNYORLUQ SAZİŞİ);

**19.** Auditorlar Palatası Şurasının 2018-ci il 13 avqust tarixli 303/2 saylı qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Auditorlar Palatasının Keyfiyyətə nəzarət üzrə Appelyasiya Komissiyasının Əsasnaməsi” barədə (ƏSASNAMƏ);

**20. Auditorlar Palatası Şurasının 2019-cu il 18 mart tarixli 309/1 nömrəli qərarı ilə təsdiq edilmiş “Publik hüquqi şəxslərdə maliyyə hesabatlarının auditi üzrə metodik göstəriş” barədə;**

**21. Auditorlar Palatası Şurasının 2020-ci il 29 iyun tarixli 321/5 saylı qərarı ilə təsdiq edilmiş “Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında qanunvericiliyə auditorlar tərəfindən riayət edilməsinin monitorinqinə dair təlimat”ın tətbiqi barədə;**

**22. Auditorlar Palatası Şurasının 2021-ci il 18 iyun tarixli “Auditor təşkilatında daxili nəzarətin təşkili və həyata keçirilməsi üzrə Metodik Göstəriş”in layihəsi barədə şirkətdaxili nəzarətin yaradılması üçün Metodik yardımın göstərilməsi barədə;**

**23. Auditorlar Palatası Şurasının 2021-ci il 07 sentyabr tarixli 334/2 saylı qərarı ilə təsdiq edilmiş “Auditə ictimai etimadın gücləndirilməsi üzrə tədbirlərin görülməsi” barədə (TÖVSİYƏLƏR);**

**24. Auditorlar Palatası Şurasının 2022-ci il 14 aprel tarixli 343/6 nömrəli qərarı ilə təsdiq edilmiş “Auditor xidməti sahəsində haqsız rəqabət və reklam qadağası haqqında ƏSASNAMƏ” barədə;**

**25. Auditorlar Palatası Şurasının 2022-ci il 31 may tarixli 344/3 saylı qərarı ilə təsdiq edilmiş “Auditor fəaliyyəti sahəsində haqsız rəqabət hallarının qarşısının alınmasına dair Prosedur Qaydalar” barədə (ƏLAVƏ);**

**26. Auditorlar Palatası Şurasının 2022-ci il 03 oktyabr tarixli 348/1 saylı qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının ərazisində göstərilən auditor**

**xidmətlərinin dəyərinin minimum hədləri" barədə (MİNİMUM HƏDDLƏR);**

**27. Auditorlar Palatası Şurasının 2022-ci il 03 oktyabr tarixli 348/2 saylı qərarı ilə təsdiq edilmiş "Audit sahəsində müsabiqə qaydaları və auditor seçimi üzrə metodik göstərişdə dəyişiklik edilməsi barədə" (QAYDALAR);**

**28. Auditorlar Palatası Şurasının 2022-ci il 19 oktyabr tarixli 349/1 nömrəli qərarı ilə təsdiq edilmiş "Auditor xidməti zamanı icra intizamının pozulmasına görə intizam məsuliyyəti və onun tətbiqi haqqında" Əsasnamənin təsdiq edilməsi barədə (ƏSASNAMƏ)**

**29. Auditorlar Palatası Şurasının 2022-ci il 19 oktyabr tarixli 349/2 nömrəli qərarı ilə təsdiq edilmiş "Rəqəmsal iqtisadiyyat şəraitində auditin aparılmasına dair yardımçı proqramlar barədə təlimat"ın tətbiq edilməsi barədə;**

**30. Auditorlar Palatasının sədri və Palata Şurası tərəfindən təsdiq edilmiş, auditor təşkilatları və sərbəst auditorlar üçün zəruri olan digər sənədlərin təqdim edilməsi barədə;**

**31. Auditorlar Palatasının üzvü olan auditor təşkilatlarının rəhbərləri və sərbəst auditorlara təqdim olun malı rəy nümunələri barədə;**

**32. "Auditorun Şəxsi Kabineti" sistemində auditor təşkilatlarının və sərbəst auditorların fəaliyyətini əks etdirən yarımillik (illik) hesabatın, müqavilələrin və rəylərin qeydiyyatı haqqında TƏLİMAT-ım təqdim edilməsi barədə;**

## III.Hüquqi təminat

**Auditor təşkilatlarına və sərbəst auditorlara göstərilən hesabatların təqdim olunması və öhdəliklərin yerinə yetilirməsinin məcburililiyi nəzərlərinə çatdırılmalıdır.**

1. Auditor təşkilatları və sərbəst auditorların maliyyə (mühasibat), vergi, statistik və s. hesabatlarının tərtibi və təqdim edilməsi barədə;

**2. Auditorlar Palatası Şurasının 1998-ci il 21 aprel tarixli 19/2 saylı qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Auditorlar Palatası üzvlərinin üzvlük haqqının müəyyən edilməsi və onun ödənilməsi qaydaları barədə Təlimat"a əsasən auditor təşkilatları və sərbəst auditorların məlumatlandırılması və onların Palataya ödənilməli olan üzvlük haqqının vaxtında ödənilməsi barədə;**

**3. Auditor təşkilatları** və **sərbəst auditorların Palatanın keçirdiyi tədbirlərdə iştirakı (konfrans, seminar, simpozium, dəyirmi masa, ixtisasartırma kursu, ictimai tədbirlər və.s) barədə;**

**4. "Auditorun peşə məsuliyyətinin icbari sığortası haqqında" Azərbaycan Respublikasının Qanununa auditor təşkilatları və sərbəst auditorlar tərəfindən riayət edilməsi və sığorta şəhadətnaməsinin təqdim edilməsi barədə;**

**5. Auditor təşkilatları və sərbəst auditorlar dəyişikliklər baş verdiyi təqdirdə Palatanın məlumatlandırılması (qeydiyyat sənədləri, ünvan, telefon, e-mail, sayt və.s) barədə.**

## IV. Texniki təminat

**Yeni fəaliyyətə başlayan auditorlara əməli köməkliyin göstərilməsi zamanı aşağıdakılar nəzərə alınmalıdır:**

1. Tez-tez verilən sualların mövzusuna dair seminarların və üstad dərslərinin keçirilməsi təşkil edilməlidir;

**2. IFAC-ın və EFAA-nın təqdim etdiyi materiallar əsasında yeni hazırlanan və ya əlavələr, dəyişikliklər edilən standartlar barədə yeni fəaliyyətə başlayan auditorlar**

**üçün ayrıca daha sadə məruzə təşkil edilməlidir;**

3. İnformasiya – kommunikasiya texnologiyalarının tətbiq edilməlidir;

4. Auditor təşkilatları və sərbəst auditorlar audit sahəsi üzrə kitab, jurnal və digər vəsaitlərlə təmin edilməlidir;

**5. Auditorlar Palatasının üzvləri olan auditor təşkilatları və sərbəst auditorlara şəxsi kabinet sistemində qeydiyyata alınmalarında və istifadəsində yardımın göstərilməlidir;**

**6. Auditor təşkilatları və sərbəst auditorların audit proqramları ilə təminatı və ondan istifadə qaydalarının təqdim edilməlidir.**

## V.
## Əməli köməkliyin göstərilməsi prosedurları:

**1. Sərbəst auditorlara əməli köməklik onlara auditor fəaliyyəti göstərilməsi barədə icazə verildikdən sonra 10 iş günü ərzində göstərilir;**

**2. Əməli köməkliyin göstərilməsi qaydası kitabların, broşurların və digər çap məhsullarının tətbiq edilməsinin, internet resurslarına Auditorlar Palatasının rəsmi internet səhifəsində olan normativ hüquqi materiallara linklərin verilməsi vasitəsilə həyata keçirilir;**

**3. Auditor təşkilatlarına və sərbəst auditorlara əməli köməkliyin göstərilməsini eyni qaydada həyata keçirilməklə təşkilatda olan icazəli auditorun bu sahədə zəruri metodik və normativ materialların tətbiq etməsini də nəzərdə tutur;**

**4. Auditor təşkilatlarına və sərbəst auditorlara əməli köməkliyin göstərilməsi müvafiq aktla rəsmiləşdirilir. Aktda aşağıdakı göstəricilər əks olunur:**

**- Auditor təşkilatının və sərbəst auditorun adı;**
**- İcazənin nömrəsi və tarixi;**
**- Verilmiş çap məhsullarının adı və sayı;**
**- Verilmiş linklərin siyahısı;**
**- Digər materiallar.**

**5. Müvafiq struktur bölmə tərəfindən Auditor təşkilatları və sərbəst auditorlara əməli köməkliyin göstərilməsi barədə hər rüb rəhbərliyə hesabat təqdim edilir.**

***Qeyd: Proqrama edilmiş əlavə və dəyişikliklər: qara hərflərlə yazılanlar yeni təklif olunan, ağ şriftlə yazılanlar isə əvvəlkiqalanlardır.***